# Azərbaycan dünyada hava nəqliyyatı sahəsində lider dövlətlərdən biri kimi tanınır

***Son 18 il ərzində həyata keçirilən tədbirlər, reallaşdırılan layihələr nəticəsində hazırda Azərbaycan dünyada nəqliyyat sahəsində lider dövlətlərdən biri kimi tanınır. Bunu nüfuzlu beynəlxalq təşkilatların reytinqlərində də görmək olar. Məsələn, Davos Ümumdünya İqtisadi Forumunun hesabatında Azərbaycan inkişaf etməkdə olan 74 ölkə arasında infrastruktur layihələri ilə bağlı dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 11-ci, hava yolları xidmətlərinin səmərəliliyinə görə 12-ci, avtomobil yollarının keyfiyyətinə görə isə 24-27-ci yerlərdədir.***

Əlbəttə, bütün bu uğurlar böyük səy, düşünülmüş siyasət hesabına gerçəkləşib. Təbii ki, burada nəqliyyat infrastrukturuna vəsait qoyuluşunun diqqət mərkəzində saxlanılması da önəmli rol oynayıb. Bu isə son nəticədə, şübhəsiz ki, ölkəmizin iqtisadi, xüsusilə qeyri-neft sektorunun inkişafına müsbət təsir göstərib.

Azərbaycanda beynəlxlaq standartlara cavab verən avtomobil və dəmir yollarının tikintisi, hava nəqliyyatının inkişafı istiqamətində böyük layihələr reallaşdırılıb.

Bu gün respublikamızda ən müasir təyyarə parkı fəaliyyət göstərir. Həm yük, həm də sərnişin təyyarələri mütəmadi olaraq müasirləşdirilir. Həmin nəqliyyat vasitələri dünyanın aparıcı şirkətləri tərəfindən istehsal edilir.

Azərbaycanın dünyanın inkişaf etmiş dövlətləri sırasında layiqli mövqe tutmasını başlıca prioritetlərdən biri kimi qarşıya məqsəd qoyan Prezident İlham Əliyevin həyata keçirdiyi sürətli sosial-iqtisadi inkişaf proqramları mülki aviasiyanın yüksəlişində də mühüm rol oynayıb.

Ötən 18 ildə ölkəmizin hava nəqliyyatının modernləşdirilməsinə xüsusi diqqət göstərilir. Nəhəng aviaşirkətlərdən birinə çevrilən "AZAL" həm regionda, həm də MDB məkanında yeni avialaynerlərin sayına görə liderlərdən biridir. Heydər Əliyev Beynəlxalq Aeroportunda isə yeni aerovağzal kompleksinin istifadəyə verilməsi bu hava limanının strateji əhəmiyyətini daha da artırır.

Heydər Əliyev Beynəlxalq Hava Limanı beşulduzlu hava limanı olaraq, dünyadakı 10 limandan biridir, MDB-də isə birinci yerdədir. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu möhtəşəm bina ölkəmizin güc-qüdrətini göstərir. Bu aeroport nadir memarlıq əsəridir, daxili dizayn göz oxşayır. Heydər Əliyev Beynəlxalq Hava Limanı, eyni zamanda, ölkəmizin hava qapısı kimi bugünkü Azərbaycanın inkişafını göstərir və gözəlləşən Bakıya əlavə yaraşıq verir.



*(ardı 2-ci səhifədə)*

# Azərbaycan dünyada hava nəqliyyatı sahəsində lider dövlətlərdən biri kimi tanınır

*(əvvəli 1-ci səhifədə)*

Ümumiyyətlə, hava nəqliyyatının inkişafı Azərbaycanda prioritet məsələlərdən biridir, dövlət bu sahəyə öz dəstəyini əsirgəmir. Son illərdə hava nəqliyyatının inkişafına böyük dövlət investisiyaları qoyulması da bunun bariz ifadəsidir.

Heydər Əliyev Beynəlxalq Hava Limanından danışarkən, təkcə onu demək kifayətdir ki, bu aeroport il ərzində 6 milyon sərnişinə xidmət edə biləcək gücə malikdir. Əsaslı şəkildə bərpa edilən hava limanının köhnə binası isə 3 milyon sərnişini qəbul edə bilər. Beləliklə, il ərzində Bakının aeroportundan 9 milyon sərnişinin yararlanması üçün əlverişli şərait var.

Respublikamızın şəhərlərində də bu istiqamətdə mühüm layihələr reallaşdırılıb, ardıcıl olaraq 2004-cü ildə Naxçıvanda, 2006-cı ildə Gəncədə, 2008-ci ildə Lənkəranda və Zaqatalada, 2011-ci ildə Qəbələdə beynəlxalq hava limanları tikilib, müasir uçuş-enmə zolaqları inşa edilib, 2013-cü ildə isə Yevlax hava limanı yenidən qurulub.

Dövlətimizin başçısı hava nəqliyyatının inkişafı ilə bağlı çıxışlarının birində xatırladıb: “Mənim göstərişimlə digər şəhərlərimizdə inşa edilmiş hava limanları bizim nəqliyyat potensialımızı böyük dərəcədə gücləndirir. Son illərdə 7 hava limanı inşa edilmişdir. Onlardan 6-sı beynəlxalq statusa malikdir və bütün növ təyyarələri, o cümlədən, ən ağır yük təyyarələrini qəbul edə bilir…”.



Yeri gəlmişkən, hazırda Füzuli Beynəlxalq Hava Limanının tikintisində işlər sürətlə aparılır. Prezident İlham Əliyevin aprelin 26-da Zəngilana səfəri çərçivəsində bu bölgədə ikinci beynəlxalq hava limanın təməli qoyulub. Üçüncü hava limanının isə Laçın rayonu ərazisində salınacağı nəzərdə tutulub.

Prezident İlham Əliyev aprelin 28-də “Boeing Commercial Airplanes” şirkətinin prezidenti və baş icraçı direktoru Stenli Dili qəbul edərkən, yuxarıda qeyd edilənlər barədə ətraflı danışılıb. Söhbətdə “Boeing” şirkəti adından Azərbaycanla iyirmi ildən çox bir müddətdə əməkdaşlıq və iş birliyi məsələsində liderliyə görə dövlətimizin başçısına təşəkkür ifadə edilib.

Ölkə rəhbəri söhbət zamanı Azərbaycanın “Boeing” şirkəti ilə uğurlu əməkdaşlıq həyata keçirdiyini bildirərək, bu əlaqələrin hava yollarımızın inkişafında önəmli rol oynadığını diqqətə çatdırıb. Dövlətimizin başçısı, eyni zamanda, işğaldan azad edilən ərazilərimizdə də yeni hava limanlarının inşa olunduğunu bildirib və bu baxımdan təyyarə parkımızın daha da genişlənəcəyini vurğulayıb.

Prezident İlham Əliyev işğaldan azad olunan ərazilərdə tikintisinə bir neçə ay bundan öncə başlanılan birinci hava limanında işlərin çox sürətlə getdiyini, kompleksin sentyabr ayında istismara veriləcəyini xatırladaraq, iki gün bundan əvvəl isə digərinin təməlini qoyduğunu qeyd edib.

Dövlətimizin başçısı, eyni zamanda, ölkəmizin yükdaşıma təyyarələri parkının güclü potensialının mövcudluğunu da vurğulayıb və bu sahədə əməkdaşlıq üçün geniş imkanların olduğunu xatırladıb. Prezident İlham Əliyev, həmçinin Azərbaycanın “Boeing” şirkəti ilə uğurlu əməkdaşlığının bundan sonra da həyata keçiriləcəyinə, bu qurumun respublikamıza yükdaşıma üçün təyyarə parkının inkişafında da kömək göstərəcəyinə əminliyini ifadə edib.

Ölkə rəhbəri söhbətinin davamında Azərbaycanın yük təyyarələri parkının potensialına görə aparıcı ölkələr sırasında yer aldığını, son illərdə hava yolu ilə yükdaşımaları sahəsində ən yüksək göstəricilərin əldə edildiyini diqqətə çatdırıb.

Nəhayət xatırladaq ki, son illər ərzində hava nəqliyyatı infrastrukturunun yaradılması ilə bağlı bütün əsas işlər görülsə də, bunun davam etdirilməsinə hələ ciddi ehtiyac duyulur. Çünki Azərbaycan inkişaf edir və ölkəmizə gələn qonaqların sayı artır. Belə olan halda əlbəttə ki, hava nəqliyyatının inkişafı bundan sonra da prioritet məsələ olaraq qalacaq. Eyni zamanda, Azərbaycanda yük daşımalarının həcmi də artır. Azərbaycanda karqo aviasiya dünya miqyasında ön sıralardadır. Respublikamız bu inkişafla kifayətlənmir. Yeni təyyarələr alınır, karqo terminalın fəaliyyətinin səmərəliliyi istiqamətində müxtəlif layihələr reallaşdırılır. Bütün bunlar isə ölkəmizin beynəlxalq önəmini artırır, eyni zamanda, iqtisadi potensialımızı gücləndirir.

***V.BAYRAMOV, “Xalq qəzeti”***

Xalq qəzeti 2021.- 30 aprel.- S.1;2.